**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**

**Regional bölməsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) strukturuna daxil olan Regional bölmə (bundan sonra - Regional bölmə) fəaliyyət göstərdiyi region üzrə (bundan sonra - region) iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən sənayenin inkişafı, investisiya qoyuluşu, sahibkarlığın dəstəklənməsi, ticarət fəaliyyəti, sosial-iqtisadi inkişaf və mənzil-kommunal təsərrüfatı sahələrində tədbirləri həyata keçirir.

1.2. Regional bölmə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Regional bölmə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra - Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Regional bölmə üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, ştampa və blanka malikdir.

1.5. Regional bölmə nazir tərəfindən müəyyən edilmiş inzibati ərazi vahidləri üzrə fəaliyyət göstərir.

## 2. Regional bölmənin fəaliyyət istiqamətləri

2.0. Regional bölmə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.0.1. sosial-iqtisadi inkişaf strategiyası və istiqamətləri, iqtisadiyyatın dövlət tənzimlənməsi, regionların sosial-iqtisadi inkişafı və digər dövlət proqramlarının layihələrinə dair region üzrə təkliflər hazırlayır və Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsinə təqdim edir;

2.0.2. regionların sosial-iqtisadi inkişafı, habelə Nazirliyin əlaqələndiricisi olduğu digər dövlət proqramlarının, tədbirlər planlarının region üzrə icra vəziyyəti barədə mütəmadi olaraq məlumatlar toplayır, onların icrasını yerli icra hakimiyyəti orqanları ilə əlaqələndirir, icrasına nəzarəti (monitorinqi) həyata keçirir, bununla bağlı hesabatlar hazırlayaraq Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsinə təqdim edir;

2.0.3. regionda sahibkarlığın və sənayenin inkişafına kömək göstərilməsi, investisiya qoyuluşu, ticarət fəaliyyəti və mənzil kommunal-təsərrüfatı sahələrində tədbirlərin həyata keçirilməsində iştirak edir və bununla bağlı təkliflər verir;

2.0.4. müvafiq sahənin inkişafına dair təkliflər verir;

2.0.5. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Regional bölmənin vəzifələri

3.0. Bu Əsasnamədə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Regional bölmənin vəzifələri aşağıdakılardır:

3.0.1. regionun sosial-iqtisadi inkişafı ilə əlaqədar əsas göstəricilər bazasını formalaşdırmaq, onları rüblük yeniləmək, həmin göstəricilər əsasında regionun sosial-iqtisadi vəziyyətinin təhlilini aparmaq, rüblük və illik inkişaf dinamikasını müəyyənləşdirmək;

3.0.2. sosial-iqtisadi inkişaf sahəsində məqsədli proqramların (strategiyaların) layihələrinə dair Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsinə təkliflər vermək və qəbul edildikdən sonra region üzrə onların həyata keçirilməsi ilə bağlı tədbirləri görmək;

3.0.3. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionun əmək ehtiyatlarının və məşğulluq sahəsində inkişafının əsas istiqamətlərinin aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının regional qurumları ilə birlikdə müəyyənləşdirilməsində iştirak etmək;

3.0.4. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionun ayrı-ayrı şəhər və rayonları üzrə aylıq və ya rüblük minimum istehlak səbətinə daxil olan mallar və xidmətlər, həmçinin əhalinin kütləvi şəkildə istifadə etdiyi və minimum istehlak səbətinə daxil olmayan mallar (işlər, xidmətlər) üzrə qiymət monitorinqlərində iştirak etmək, bu barədə məlumatların əldə olunması məqsədilə yerli icra hakimiyyəti orqanlarına, mərkəzi icra hakimiyyəti orqanlarının regional qurumlarına, sahibkarlıq subyektlərinə sorğular göndərmək;

3.0.5. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla sosial-iqtisadi inkişaf dövlət proqramının və dövlət investisiya layihələrinin region üzrə icra vəziyyətinə nəzarəti (monitorinqi) həyata keçirmək;

3.0.6. Nazirliyin aidiyyəti struktur bölməsi ilə razılaşdırılmaqla regionda dövlət investisiyaları hesabına dövlət satınalmalarının həyata keçirilməsi ilə əlaqədar satın alan təşkilatların tender komissiyalarının tərkibində Nazirliyi təmsil etmək;

3.0.7. ölkə iqtisadiyyatına region üzrə investisiya qoyuluşu imkanları, dövlət və özəl müəssisələr haqqında məlumat bankının yaradılması ilə əlaqədar məlumatları Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.8. region üzrə potensial investorlar üçün "məlumat kitabçası"nın hazırlanmasında iştirak etmək;

3.0.9. regionun ticarət potensialının inkişafı, ticarət əlaqələrinin genişləndirilməsi, ixrac potensialının inkişaf etdirilməsi, mallarının və xidmətlərinin xarici bazarlara çıxarılması ilə bağlı təkliflər hazırlamaq və Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.10. əhalinin tələbatından və regionun xüsusiyyətlərindən asılı olaraq regionun sənaye potensialının inkişafı, regionda yeni istehsal və emal sahələrinin yaradılması ilə bağlı araşdırmalar aparmaq və bununla əlaqədar təkliflər hazırlayıb Nazirliyin aidiyyəti struktur bölmələrinə təqdim etmək;

3.0.11. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionun sosial-iqtisadi inkişafı ilə bağlı biznes-forumların, yerli və xarici şirkətlərin sərgilərinin və digər bu kimi tədbirlərin keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.0.12. regionda sahibkarlığın inkişafına kömək və onun stimullaşdırılması sahəsində tədbirlərin həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək, regionun xüsusiyyətləri nəzərə alınmaqla bu sahəyə dövlət maliyyə yardımının ümumi şərtlərinin, aparıcı istiqamətlərinin və formalarının müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

3.0.13. regionun xüsusiyyətləri nəzərə alınmaqla sahibkarlığın inkişafı, sahibkarlığa dövlət yardımı və sahibkarların hüquqlarının qorunması ilə əlaqədar təkliflər hazırlayaraq Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək və bununla bağlı tədbirləri Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırmaqla həyata keçirmək;

3.0.14. dövlət orqanlarının regiondakı sahibkarların və istehlakçıların hüquqlarını, qanuni mənafelərini pozan hərəkətləri barədə məlumatları Nazirliyin aidiyyəti struktur bölmələrinə təqdim etmək;

3.0.15. regionda sahibkarlıq subyektlərinə paylanmış "Nəzarət Kitabçaları"nın uçotunu aparmaq və bununla bağlı hesabat hazırlayaraq Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək;

3.0.16. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionda sahibkarların maarifləndirilməsi, iqtisadi və hüquqi informasiya ilə təmin edilməsi, o cümlədən sahibkarlara hüquqi məsləhət və metodiki yardımların göstərilməsi ilə bağlı tədbirlər görmək;

3.0.17. regionda sahibkarlıq subyektləri üçün biznes inkubatorların və digər dəstək vasitələrinin yaradılmasında fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.0.18. regionda mənzil-kommunal təsərrüfatı sahələrində mövcud vəziyyəti təhlil etmək, bununla bağlı müvafiq arayışlar hazırlayaraq Nazirliyin aidiyyəti struktur bölməsinə təqdim etmək, regionda bu sahədə keçirilən marifləndirmə tədbirlərində iştirak etmək;

3.0.19. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi vasitəsilə digər strukturlarının sorğularının icrasını həyata keçirmək, həmin strukturların sorğularının icrası ilə bağlı təhlili arayışlar, təkliflər hazırlayıb aidiyyəti üzrə təqdim etmək;

3.0.20. fəaliyyəti ilə əlaqədar illik iş planlarını və görülmüş işlərlə bağlı yarımillik hesabatları hazırlayıb Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsinə təqdim etmək;

3.0.21. Regional bölmənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.0.22. qanunvericiliyə uyğun olaraq dövlət və kommersiya sirrinin, məxfilik rejiminin və xidməti məlumatların qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini görmək;

3.0.23. fəaliyyəti istiqamətləri üzrə daxil olan ərizə, şikayət və təkliflərə baxmaq və səlahiyyətləri daxilində tədbirlər görmək;

3.0.24. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Regional bölmənin hüquqları

4.0. Regional bölmənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.0.1. regionun inkişaf perspektivlərini təhlil etmək, iqtisadiyyatın, o cümlədən sənayenin ayrı-ayrı sahələrinin əvvəlki və mövcud vəziyyəti barədə məlumatlar əsasında qarşıya çıxan problemlərin aradan qaldırılmasına dair təkliflər hazırlamaq;

4.0.2. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionda sosial sahələrin inkişafına dövlət dəstəyi mexanizmlərinin hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

4.0.3. Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi ilə razılaşdırılmaqla regionda davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət orqanlarının, eləcə də beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının, özəl qurumların əməkdaşlığının yaradılmasında və inkişafında fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

4.0.4. Regional bölmənin fəaliyyəti ilə bağlı təşkilati-sərəncamverici sənəd layihələrinin hazırlanmasında iştirak etmək, belə layihələrə dair rəy və təkliflər vermək;

4.0.5. müvafiq sahədə mütəxəssislərin hazırlanması, peşəkarlığının və ixtisasının artırılması üçün aidiyyəti üzrə təkliflər vermək;

4.0.6. Regional bölmənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aidiyyəti üzrə təkliflər vermək;

4.0.7. Nazirlik tərəfindən yaradılmış işçi qruplarında, komissiyalarda, treninqlərdə və digər bu kimi tədbirlərdə, habelə Nazirliyin rəhbərliyinin göstərişi əsasında digər orqanlar tərəfindən yaradılmış komissiyaların, işçi qruplarının işində iştirak etmək;

4.0.8. səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı məhkəmələrdə iddiaçı və cavabdeh qismində iştirak etmək;

4.0.9. Nazirliyin rəhbərliyinin etibarnaməsi (vəkalətnaməsi) əsasında məhkəmələrdə və dövlət orqanlarında Nazirliyi təmsil etmək;

4.0.10. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr, habelə tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, onların nəticələrinə əsasən Nazirliyə təkliflər vermək;

4.0.11. Regional bölmənin iş planından kənar məsələlərin baxılması təşəbbüsü ilə çıxış etmək;

4.0.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Regional bölmənin fəaliyyətinin təşkili

5.1. Regional bölmənin strukturu və işçilərin say həddi nazir tərəfindən müəyyən və təsdiq edilir. Regional bölmə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir. Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs Regional bölmənin fəaliyyətinə müdaxilə edə bilməz.

5.2. Regional bölmənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (Regional bölmənin müdiri) rəhbərlik edir. Regional bölmənin müdiri Regional bölməyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Regional bölmənin müdiri olmadıqda onun səlahiyyətlərini nazir tərəfindən müəyyən edilmiş şəxs həyata keçirir.

5.4. Regional bölmənin əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Regional bölmənin müdiri:

5.5.1. Regional bölmənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. Regional bölməyə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. Regional bölmə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, Regional bölmə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. Regional bölmənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. Regional bölmənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi vasitəsilə digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. Regional bölməni bütün dövlət və yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslərlə münasibətlərdə və məhkəmələrdə etibarnaməsiz təmsil edir.

5.6. Regional bölmənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

5.7. Regional bölmənin fəaliyyətinin daha da təkmilləşdirilməsi və gücləndirilməsi ilə bağlı təkliflərin verilməsi, habelə Nazirliyin regional bölmələrinin fəaliyyətlərinin

əlaqələndirilməsi Nazirliyin Regionların inkişafı və dövlət proqramları şöbəsi tərəfindən həyata keçirilir.

5.8. Regional bölmənin yenidən təşkil olunması və yaxud ləğv edilməsi nazirin əmri ilə həyata keçirilir.